

■ Zakir Bağır

# Dava-dava oyunu

*hekayə*



İbrahim topu yerə qoydu. Məhəllənin kiçik yaşlı uşaqları iki komandaya bölünmüşdülər. Futbol oynayacaqdılar.

Binanın üçüncü mərtəbəsindən ağlamaq səsi gəlirdi. Kimsə yanıqlı-yanıqlı bayatı söyləyirdi.

Uşaqlar çevrilib səs gələn tərəfə baxdılar. Ağlaya-ağlaya yanıqlı bayatı deyən Ceyhunun anası idi.

Bu topu məhəllənin kiçik yaşlı uşaqları üçün Ceyhun almışdı. O, uşaqların futbol oyununa hakimlik edirdi.

Ceyhunu əsgərlik xidmətinə çağırdılar. O, cəbhə bölgəsinə düşdü. Çox çəkmədi ki, onun şəhid olmaq xəbəri gəldi.

Ceyhunun ölümündən qırx gün keçməsinə baxmayaraq, anası hər gün yanıqlı-yanıqlı bayatı deyə-deyə ağlayırdı. İndi məhəllənin kiçik yaşlı uşaqları Ceyhunun aldığı topla futbol oynamaq istəmirdilər. Başqa top isə yox idi.

İbrahim uşaqlara dedi:

- Bəlkə dava-dava oynayaq? Qızlar da burdadırlar. Onlar həkim olacaqlar.

Oğlanlar razılaşdılar. Qızlar İbrahimin bu təklifinə sevindilər.

Göhvər tez evə qaçdı. Çox keçmədi ki, tibb bacısı olan nənəsinin onun üçün tikdiyi ağ xalatını geymiş halda gəldi.

Göhvər Qarabağı görməmişdi, Bakıda doğulmuşdu.

Müharibə başlayanda babası özünümüdafiə dəstəsi yaratmışdı. Ermənilər rayona hücum edəndə o, qocaları, qadınları və uşaqları rayondan çıxartdırdı.

Atası-anası da məcburən rayondan çıxmışdılar. Həmin illər qış sərt keçirdi. Möhkəm qar yağmışdı. Məcburi köçkünlər dizdən yuxarı olan qarda ağır-ağır hərəkət edirdilər. Tələm-tələsik evdən çıxdıqları üçün əyin-başları qalın deyildi. Yol isə bitmirdi. Onlar erməni gülləsinə tuş gəlməmək üçün ağır-ağır yeriyir, dalanda gizlənirdilər. Buna baxmayaraq, bir çoxu erməni gülləsinin qurbanı oldu. Bir çoxunun ayaqlarını şaxta vurdu. Gövhərin atasının ayaqları da şaxtadan donmuşdu.

Gövhərgil bu beşmərtəbəli binanın zirzəmisində yaşayırdılar. Döyüşdə babası şəhid olmuşdu. Dörd nəfər idilər: tibb bacısı olan nənəsi, atası və Gövhər.

Zirzəmi çox rütubətli idi, həm də havası çatışmırdı.

Atası topal Tofiq mənzil-istismar idarəsinə müraciət etdi. Zirzəmidə nəfəslik qoydular. Bu da kömək etmədi. Zirzəmi gündüzlər də qaranlıq olduğuna görə işıq yandırmalı olurdular.

Gövhər tez-tez xəstələnirdi. Həkimlər bildirirdilər:

- Uşağa təmiz hava lazımdır.

Gövhərin tibb bacısı olan nənəsi deyirdi:

- Bizim ikimərtəbəli evimiz, bağı-bağçalı həyətimiz vardı. Allah ermənilərin cəzasını versin. Hər şey əlimizdən çıxdı. Bizim bu zirzəmidə nə işimiz vardı, nəvəm tez-tez xəstələnsin.

Məhəllənin təqaüdçü kişiləri həyətin bir tərəfində miz-oturacaq düzəltmişdilər. Burada oturub nərd, domino oynayırdılar.

Yaz-yay aylarında Gövhərin bəxti gətirdi. O, bu oturacaqda əyləşib dərslərini öyrənirdi.

...Məhəllənin kiçik yaşlı uşaqları iki komandaya bölündülər. Vəzifə bölgüsü aparıldı. İbrahim soruşdu:

- Kimlərlə vuruşacağıq?

- Uşaqlardan kimsə dedi:

- Ermənilərlə.

İkinci komandaya düşmüş Gövhər ağlamsındı:

- Mən erməni olmaq istəmirəm. Ermənilər pis adamdırlar. İkinci komandadan olan başqa uşaq bildirdi:

- Mən də erməni olmaq istəmirəm. Ermənilər bizim uşaqları öldürürlər...

Nə oğlanlar, nə də qızlar erməni olmaq istəmirdilər.

Dava-dava oyunu baş tutmadı.

# Yaxşılıq

*hekayə*

Samidin sevinci yerə-göyə sığmırdı. Axı, o, imtahan və zaçotları uğurla vermişdi. "Rayona gedib yaxşıca istirahət edərəm. Anamın bişirdiyi dadlı yeməkləri yeyərəm." - Samid belə düşünürdü.

Dekanatlığa getmişdi, qrup nümayəndəsi auditoriyaya daxil olub dedi:

- Sabah saat 10-da universitetin akt zalında iclas olacaq. Şəxsən rektor özü iclasda iştirak edəcək.

Bu o demək idi ki, hamı iclasda iştirak etməlidir.

...Akt zalı müəllim və tələbələrlə dolu idi. İclasa sədrlik edən rektor qısa danışdı:

- Respublikamızın pambıqçılıq rayonlarından biri bizimlə müqavilə bağlayıb. Rayonlarda sovxozların birində bizə sahə ayrılıb. Sahədəki pambığı biz yığmalıyıq. Pambıq yığımına gəlməyən tələbələr universitetdən qovulacaq. Sabah bütün tələbələr universitetin həyətində olmalıdır...

...Tələbələr üçün ayrılmış maşınlar sovxoz idarəsinin yanında dayandı. Əvvəlcə tələbələrə nəzarət edən müəllimlər, sonra tələbələr maşından düşdülər. Onları sovxozun direktoru, briqadirlər, qabaqcıl fəhlələr qarşıladılar.

İdarənin zalında qısa görüş oldu. Sovxoz direktoru ayağa qalxıb dedi:

- Çox sağ olun, bizə köməyə gəlmisiniz. Briqadirlər sizə yatmaq üçün yer göstərəcəklər. Yol gəlmisiniz, bu gün istirahət edin, sabah işə çıxarsanız. Pambıq sahəsində ilanlara da rast gələrsiniz. Qorxmayın, ilanı tapdalamasanız sizə heç nə etməz.

Universitetin fakültələri briqadalar arasında bölündü. Fakültənin qızları kənd məktəbinin siniflərində, oğlanlar isə idman zalında qalırdılar.

Səhəri günü tələbələrə pambıq sahəsini göstərdilər. Bölgü aparıldı. Samidə pambıq sahəsinin lap axırında yer düşdü.

Pambıq sahəsinin yanında iri bir kanal çəkmişdilər. Kanalın üstünə körpü əvəzinə yanaşı iki budaq qoymuşdular. Kanalın o tərəfində pambıq qəbul edən məntəqə vardı.

Ömründə pambıq yığmayan tələbə üçün çətin idi.

Samid nə qədər əlləşdisə, gündə 18 kilodan artıq pambıq yığa bilmədi. Amma pambıqçılıq rayonlarından olan tələbələr, xüsusən qızlar. hər gün 200-250 kilo pambıq yığırdılar. Pambıq yığan zaman onların əllərini görmək olmurdu. Amma tələbələr arasında pambıqçılıq rayonlarından olanlar az idi.

...Samid yenə pambıq yığırdı. O, fışıltı eşitdi. Ona elə gəldi ki, ilanı tapdalayıb. Rəngi saraldı. Qorxa-qorxa ayaqlarının altına baxdı. Heç bir ilan yox idi. Ürəyi sakitləşdi, amma fışıltı yenə gəlirdi.

Samid ətrafa baxdı. İri bir ilan başını kanala tərəf əymişdi. Nə qədər çalışırdısa, su içə bilmirdi. Kanalı ətrafına torpaq tökmüşdülər.

İlan ətrafa baxdı. Sanki kömək istəyirdi. Samid ilana tərəf bir-iki addım atdı. İlan onu görüb kolluğa girdi. Samid əlləri ilə kanalın ətrafına tökülmüş torpağı araladı. Su qırağa axmağa başladı. Kiçik bir gölməçə yarandı.

Samid öz yerinə qayıtdı. Elə bil ilan bunu gözləyirdi. Çox keçmədi ki, yenə də fışıltı eşidildi. İlan kolluqdan çıxıb gölməçəyə yaxınlaşdı. Gölməçədəki suyu içməyə başladı. Sonra Samidə tərəf baxdı. Tələbəyə elə gəldi ki, ilan ona minnətdarlıq edir.

Günlər beləcə keçirdi. Hər dəfə işə gələn tələbə oğlan kanalın ətrafına tökülmüş torpağı aralayırdı. İndi böyük gölməçə yaranmışdı. İlan da fışıldaya-fışıldaya gəlib gölməçədən su içir, sonra bir müddət Samidə tərəf baxır, harasa gedirdi.

...Pambıqçılıq sovxozunun direktoru iclas çağırtmışdı. Tələbələr də iclasda iştirak edirdilər.

Sədr tələbələrdən razılıq etdi.

- Canla-başla işləyirsiniz. Bunun üçün çox sağ olun. Hər gün sizin pambıq yığımı cədvəlinə baxıram. Bir az da zəhmət çəkib daha çox pambıq yığa bilərsiniz. Sizi yaxşı başa düşürəm. Çünki iki övladım da tələbədir. İmtahan və zaçotdan sonra sizə yaxşı istirahət lazımdır. Sizin dekanınızla (Həftədə bir dəfə tələbələrə nəzarət edən müəllimlər dəyişirdi, indi dekan özü gəlmişdi) belə məsləhətləşmişik ki, filan qədər pambıq təhvil versəniz, sizi vaxtından qabaq evlərinizə buraxacağıq.

Gurultulu alqış eşidildi. Tələbələrin sevinci yerə-göyə sığmırdı.

Samid fikirləşdi ki, 18 kilo pambıqla iş aşmaz. Gündə heç olmasa 45-50 kilo pambıq yığmalıdır.

Səhərisi gün Samid sovxoz direktorunun dediyi kimi ürəkdən işə girişdi. Nəticə pis olmadı. O, əvvəlki günlərdən çox pambıq yığdı. Sonrakı günlər də uğurlu oldu.

Son vaxtlar yığdığı pambıq 40-45 kilo gəlirdi. Başqa tələbələr də yığdığı pambığın kilosunu artırmışdılar.

Sovxoz direktoru tələbələri daha da həvəsləndirdi.

- Bir az da çox yığsanız lap az qalar.

...Həmin gün Samid nəyin bahasına olursa-olsun, daha çox pambıq yığmaq fikrində idi. Başı işə o qədər qarışmışdı ki, qaranlığın düşməsini hiss etmədi.

Birdən sahənin yuxarı başında, pambıq qəbuletmə məntəqəsinə gedən yolda "körpü" tərəfində qışqırıq səsləri eşidildi. Tələbə qızlar ağlayırdılar.

Samid dikəlib "körpü"yə tərəf baxdı. Burada çoxlu adamın yığışdığını gördü. Xaralı çiyninə qoyub məntəqəyə sarı addımlamaq istədi. Fışıltı səsi eşidildi. Həmişə onun düzəltdiyi gölməçədə su içən ilan qarşısında dayanmışdı.

Samid ona əhəmiyyət vermədən qabağa getmək istədi. İlan onun qabağını kəsdi. "Mən ki, ilana pislik etməmişəm. Onun su içməsinə şərait yaratmışam. O, niyə qabağımı kəsir?" - tələbə öz-özünə düşündü.

İndi qışqırıq, ağlaşma lap aydın eşidilirdi. Samid yenə qabağa getmək istəyirdi ki, ilan peyda oldu. Tələbə heç nə anlamayaraq xaralı yerə qoydu. Özü də onun üstündə oturdu. Hava artıq qaralmışdı. İndi qışqırıq, ağlaşmaq əvvəlki kimi eşidilmirdi. Samid ətrafına, qabağa baxdı. İlan yox idi. O, xaralı çiyninə atıb ağır addımlarla "körpü"yə tərəf addımladı. "Körpü"nün yanında bir neçə nəfər əllərində fanar ətrafa baxırdı.

- Diqqətlə baxın, - bu dekanın səsi idi. Samid dekanın səsini yaxşı tanıyırdı.

Bu an kimsə bildirdi:

- Müəllim kimsə bizə tərəf gəlir, çiynində də xaral. Axtardığımız tələbə deyil?

- Odur!..

Bir nəfər yerli yaxına gəlib xaralı Samiddən aldı. Dekan yaxın gəldi, ata kimi onu bağrına basdı:

- Çox şükür salamatsan. Bəs səs-küy eşitmirdin? Heç bilirsən nə baş verdi? Ağır yükü olan tələbələrdən biri kanalın üstündəki "körpü"nü keçərkən səhvən ayağını budağın qırağına qoyub. Budağın bir tərəfi yuxarı qalxıb tələbə ilə bir yerdə kanala düşür. Onun ardınca gələn tələbələr də onun kimi...

Samid kənarda dayanmış tələbələrə baxdı. Paltarları yaş, palçıq içində olan bu uşaqların bir çoxunun qolları, sifətləri əzilmişdi. Onlar zədə almalarına baxmayaraq Samidi sağ-salamat görüb sevinirdilər.

- Əlbəttə, eşidirdim, - Samid bildirdi. Xaralı çiynimə qoyub tez gəlmək istəyirdim.

Əhvalatı danışdı. Samid sözünü bitirən kimi sovxoz direktoru dedi:

- Sənin canını o ilan qurtarıb.

Samid indi başa düşdü ki, ilan niyə onun gəlməsinə mane olurmuş.